**İstiqlal marşı**

Bir millətin var olma mübarizəsinin simvolu olan "İstiqlal marşı"nın müəllifi şair Mehmet Akif Ərsoydur. "Vətən şairi" və "Milli şair" ünvanları ilə tanınır. "İstiqlal marşı" ilə yanaşı, "Çanaqqala dastanı", "Bülbül" və 1911–1933-cü illər arasında nəşr olunan yeddi şeir kitabındakı şeirləri bir araya gətirən "Səfahat" ən dəyərli əsərlərindəndir. Milli Təhsil naziri Həmdullah Sübhi Tanrıövərin istəyi ilə dostu Həsən Bəsri bəy onu milli marş yarışmasına qatılmağa razı salmışdır. O isə başlanğıcda qoyulan 500 lirə mükafata görə iştirak etməkdən imtina etmişdir. O günə qədər göndərilən şeirlərin heç biri kifayət qədər qənaətbəxş olmamış və ən gözəl şeiri Mehmet Akifin yazacağı fikri məclisdə hakim olmuşdur. Mehmet Akifin müsabiqəyə qatıldığığ bilindikdən sonra,bir çox şairlər şeirlərini geri çəkmişlər. Şairin orduya həsr etdiyi Türk "İstiqlal marşı", Həmdüllah Sübhi bəy tərəfindən parlamentdə oxunulmuş, ayaq üstə dinləndikdən sonra, 12 mart 1921-ci il Milli "İstiqlal marşı" olaraq qəbul edildi. Mehmet Akif, 500 lirə mükafatı, Türk Qırmızı Aypara Cəmiyyəti nəzdində qadın və uşaqlara iş öyrədən və cəbhəyə paltar tikən "Darül-məsai" vəqfinə bağışlamışdır.

Qorxma, sönməz bu şəfəqlərdə üzən al bayraq,
Sönmədən yurdumun üstündə tütən ən son ocaq.
O mənim millətimin ulduzudur, parlayacaq,
O mənimdir, o mənim millətimindir ancaq!

Çatma, qurbanın olum, çöhrəni, ey nazlı hilal,
Qəhrəman xalqıma bir gül nə bu şiddət, bu cəlal?!
Sənə olmaz tökülən qanlarımız sonra halal,
Haqqıdır Haqqa tapan millətimin istiqlal!

Mən, əzəldən bəridir, hürr yaşadım, hürr yaşaram,
Hansı çılğın mənə zəncir vuracaqmış? Şaşaram!
Kükrəmiş sel kimiyəm, bəndimi çeynər, aşaram ,
Yırtaram dağları, ənginlərə sığmam, daşaram!